# Azanı eşidirsənmi? O: “Bəli!” - dedi. Bu zaman Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) dedi: "O zaman cavab ver( camaat namazına gəl)

Əbu Hureyradan (Allah ondan razı olsun) belə dediyi rəvayət edilir: Bir kor kişi Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) yanına gəlib: "Ey Allahın Rəsulu, məni məscidə aparacaq bir kimsəm yoxdur."-deyərək, Allah Rəsulundan ona öz evində namaz qılmağı icazə verməsini istədi. İlkin olaraq ona icazə verdi, lakin adam çıxıb getmək istəyəndə onu çağırıb dedi: “Azanı eşidirsənmi? O: “Bəli!” - dedi. Bu zaman Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) dedi: "O zaman cavab ver( camaat namazına gəl)"

[Səhih] [Muslim rəvayət etdi]

Kor bir kişi Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) yanına gəlib, "Ey Allahın Rəsulu, beş vaxt namazda mənə kömək edərək əlimdən tutub məscidə aparan kimsəm yoxdur."-deyərək Peyğəmbərdən (Allahın salavatı və salamı onun üzərinə olsun) ona camaat namazında iştirak etməmək üçün rüxsət istədi. Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) da əvvəl ona icazə verdi, lakin sonra adam çıxıb getmək istədikdə onu çağırıb dedi: Namaz üçün azanı eşidirsənmi? "Bəli"-dedi. Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) də: "-Azan verənə cavab ver."- deyə buyurdu.



النجاة الخيرية
ALNAJAT CHARITY
لجنة الدعوة الإلكترونية
EDC E-Da'wah Committee